

# Unudulan, unudulmayan Almas İldırım

*Almas İldırımın anadan olmasının 100 illik yubileyi respublikamızın bütün bölgələrində qeyd edilir. Bu münasibətlə müxtəlif tədbirlər keçirilir. Onlar arasında sentyabrın 25-28-də təşkil olunan yubiley tədbirləri xüsusilə fərqlənir.*

İlk gün qonaqlar qarşılandı və Park-İndə yerləşdirildi. Ertəsi gün tədbir iştirakçıları və Bakıya təşrif gətirmiş qonaqlar Fəxri Xiyabanı və Şəhidlər Xiyabanını ziyarət etdilər. Sonra Təhsil Nazirliyi, Suraxanı və Əzizbəyov Rayon İcra hakimiyyətlərində qəbullar təşkil olundu. Atəşgah ziyarət edildi, Almas İldırımın heykəli önündə poeziya axşamı – konsert keçirildi.

Yubileyin üçüncü günü Milli Elmlər Akademiyası, M.Fuzuli adına Ədəbiyyat İnstitutu və Azərbaycan Yazıçılar Birliyində maraqlı görüşlərlə yadda qaldı. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində poeziya axşamı, Türkiyə Cümhuriyyəti Böyük Elçiliyində qəbul keçirildi.

Tədbirin son günü Mədəniyyət və Turizm Nazirliyində qəbul təşkil olundu. Sonra Bakının tarixi yerləri – İçərişəhər, Şirvanşahlar sarayı, Miniatür kitab muzeyi, Qız qalası, Sahil parkı, Fəvvarələr meydanı ziyarət edildi. Axşam isə Opera və Balet Teatrında «Almas İldırım – 100» başlığı altında böyük yubiley keçirildi.

**Ş.ƏKBƏROVA**